

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 221 (23.863)

*27 noyabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlib, Soçidə ikitərəfli görüş olub. Sonra Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüşdə çıxış edən Rusiya Prezidenti Vladimir Putin bildirib ki, razılaşmadan sonra müəyyən işlər görülsə də insident və hər iki tərəfdən insanların həlak olması faktı var. Ən əsası gələcəkdə normal dinc həyat üçün şərait yaradılmasıdır.

Azərbaycan Prezidenti İlham Əliyev münasibətlərin nizamlanması məsələsində Vladimir Putinin şəxsi iştirakının Azərbaycanda yüksək qiymətləndirildiyini deyib. Qeyd edib ki, Azərbaycan dəfələrlə açıq bildirib ki, delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazırdır. Üstəlik, biz Ermənistan tərəfinə açıq təklif etmişik ki, sülh müqaviləsi üzərində işə başlayaq. Sonra Ermənistanın baş naziri çıxış edib.

Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış edib, Bəyanat imzalayıblar.

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransı keçirilib





Noyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun sədrliyi ilə təşkilatın VI konfransı keçirilmişdir.

Konfransın gündəliyinə aşağıdakı məsələlər verilmişdir:

1.Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədrinin məruzəsi

2. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının konfranslararası dövrdəki fəaliyyəti haqqında Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı icra katibinin hesabatı

3. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Əsasnaməsinin təsdiq edilməsi

4. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İdarə Heyətinin tərkibinin təsdiq edilməsi

5. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Təftiş Komissiyasının tərkibinin təsdiq edilməsi

6. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Veteranlar Şurasının tərkibinin təsdiq edilməsi

7. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin tərkibinin təsdiq edilməsi

Konfransın gündəliyi səsə qoyularaq qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbov konfransda məruzə etmişdir. **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)**

Gündəlikdə duran ikinci məsələ ilə bağlı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi Anar İbrahimov hesabat verərək demişdir ki, konfranslararası dövrdə partiyanın say tərkibinin artımında müsbət irəliləyişlər əldə edilmişdir. V Konfransda partiya üzvlərinin sayı 51025 nəfər olmuşdursa, hazırda üzvlərin sayı 57915 nəfərdir. Onlardan 25666-sı qadınlar, 23594-ü gənclərdir. Bu gün təşkilat üzvləri, bütövlükdə, Yeni Azərbaycan Partiyası üzvlərinin 7,5 faizini təşkil edir. Ötən dövr ərzində partiya sıralarına 8665 üzv qəbul olunmuşdur. Bu gün partiya uçotunda duranların 30-u elmlər, 176-sı fəlsəfə doktorlarıdır. Bununla yanaşı, üzvlərin 18,8 faizi təhsil, 6,8 faizi səhiyyə, 4,8 faizi elm, mədəniyyət və incəsənət sahəsində, 5,5 faizi idarəetmə strukturlarında, 47,5 faizi digər sahələrdə çalışanlardan, 3,8 faizi təqaüdçülərdən, 5,1 faizi tələbələrdən ibarətdir. Hazırda muxtar respublikanın rayon (şəhər) təşkilatlarının 506 ərazi ilk partiya təşkilatı mövcuddur. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, şəhər və rayon partiya təşkilatlarının xətti ilə ötən dövrdə 587 müxtəlif tədbir keçirilmiş, 552 İdarə Heyəti, 185 Şura yığıncağı olmuşdur. Konfranslararası dövrdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 6 seçki kampaniyasında iştirak etmiş və qələbə qazanaraq siyasi nüfuzunu və sosial dəstəyini bir daha nümayiş etdirmişdir.

Gündəlikdə duran üçüncü məsələ ilə bağlı bildirilmişdir ki, Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII növbədənkənar Qurultayında partiyanın yeni Nizamnaməsi qəbul olunmuş və partiyanın strukturunda dəyişikliklər edilmişdir. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Əsasnaməsini də həmin dəyişikliklərə uyğunlaşdırmaq məqsədilə yeni Əsasnamə hazırlanmışdır.

Əsasnamədə edilən dəyişikliklər barədə Təşkilatın icra katibi Anar İbrahimov məlumat vermiş, Əsasnamə səsə qoyularaq qəbul olunmuşdur.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İdarə Heyətinin, Təftiş Komissiyasının, Veteranlar Şurasının və Gənclər Birliyinin tərkibi təsdiq edilmişdir.

Ali Məclisin Sədri hesabat dövrü ərzində birgə fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının üzvlərinə, partiyanın təəssübkeşlərinə, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik xəttinə sədaqət göstərənlərin hamısına bir daha təşəkkür etmiş, şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş və konfransı bağlı elan etmişdir.

Sonda tədbir iştirakçıları Naxçıvan Televiziyasının Yeni Azərbaycan Partiyası ilə bağlı hazırladığı filmə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri Vasif Talıbovun MƏRUZƏSİ

Hörmətli konfrans iştirakçıları!

Bu il Yeni Azərbaycan Partiyasının yaranmasının 29-cu ildönümü tamam olur.

Əlamətdar dövrdə partiyamızın və müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiramımızı bildiririk.

1969-cu ildə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ilə dövlətçilik tariximizdə yeni mərhələnin – böyük quruculuq, inkişaf və tərəqqi dövrünün əsası qoyulmuş, müdrik dövlət xadiminin yaratdığı iqtisadi, elmi və milli potensial sonradan müstəqilliyimizin möhkəm təməlinə çevrilmişdi. Əgər ümummilli liderimiz Sovetlər Birliyi dövründə Azərbaycanı müstəqilliyə hazırlamışdırsa, 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə isə Yeni Azərbaycan Partiyasını təsis etməklə müstəqilliyimizi və dövlətçiliyimizi qorumuşdur.

1992-ci il oktyabrın 16-da ziyalıların, tanınmış elm və mədəniyyət xadimlərinin ulu öndərə xalqın mütləq əksəriyyətinin siyasi iradəsini əks etdirən ***"Azərbaycan Sizin sözünüzü gözləyir"*** müraciətinə dahi şəxsiyyət 8 gündən sonra ***"Yeni, müstəqil Azərbaycan uğrunda"*** tarixi cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasını obyektiv zərurət kimi əsaslandırmışdır.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyası hakimiyyət uğrunda deyil, Azərbaycanın xilası naminə yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, ***"Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Bu partiya yalnız xalqın istəyi ilə, xalqın təşəbbüsü ilə yaranan partiyadır".***

*Ardı 2-ci səhifədə*

Ötən dövr bir daha göstərdi ki, Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının milli iradəsini əks etdirən ***dünənin, bu günün və gələcəyin*** partiyasıdır. Ölkəmiz Yeni Azərbaycan Partiyasının proqramının həyata keçirilməsi nəticəsində yüksək inkişafa nail olmuşdur. Azərbaycanda sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, quruculuq işlərinin həcmi artmış, əhalinin rifahı yüksəlmişdir. Dahi şəxsiyyətin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas edərək Milli Qurtuluşa qovuşdurmuş, ölkə Prezidenti tərəfindən isə bu yol davam etdirilərək inkişaf və tərəqqiyə, sabitliyə və yüksək rifaha nail olunmuş, torpaqlarımız işğaldan azad edilmişdir.

Müdriklər deyirlər ki, sağlam ideologiya ordulardan daha qüdrətlidir. Böyük mübarizə yolu keçən Yeni Azərbaycan Partiyasının gücü də sağlam ideologiya və prinsiplərə əsaslanmasındadır.

Artıq bu bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyasının keçdiyi yol, əldə etdiyi nailiyyətlər Azərbaycanın dövlətçilik salnaməsidir. Ölkə Prezidentinin də dediyi kimi: ***“Azərbaycan bütün sahələr üzrə uğurlara nail ola bilibdir. Bu uğurların təməli 1992-ci ilin noyabrında qoyulub. O vaxt Yeni Azərbaycan Partiyasının yaradılması nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini qoruya və möhkəmləndirə bilib. Bu gün bütün dünya görür ki, Azərbaycan özünə güvənən, öz daxili resurslarına arxalanan, müasir ənənələrə bağlı olan güclü dünyəvi dövlətə çevrilib”.***

Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı da ümummilli liderimizin və ölkə Prezidentinin tövsiyələrini əsas tutaraq böyük inkişaf yolu keçmişdir. Partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatı, eləcə də şəhər və rayon təşkilatları üçün yeni inzibati binalar istifadəyə verilmiş, qəsəbə və kənd mərkəzlərində ərazi ilk partiya təşkilatları ayrıca iş otaqları ilə təmin edilmişdir.

Əgər 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında 1118 Yeni Azərbaycan Partiyası üzvü vardısa, hazırda partiyanın muxtar respublika təşkilatı öz sıralarında 58 minə yaxın üzvü birləşdirmişdir. Partiya üzvlərinin 25 min nəfərdən çoxu qadın, 24 minə yaxını isə gənclərdir. Bu gün partiyanın muxtar respublika təşkilatı üzvlərinin 55 faizini ali və orta ixtisas təhsillilər təşkil edir.

Hesabat dövründə ölkəmizdə keçirilən Prezident, parlament və bələdiyyə seçkilərində, eləcə də referendumda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının üzvləri aktiv iştirak edərək partiyanın siyasi nüfuzunu qoruyub saxlamışlar.

Partiyanın muxtar respublika təşkilatının 2014-cü ildə keçirilmiş beşinci konfransı ilə onun altıncı konfransı arasında olan müddət ərzində Naxçıvanda əldə olunan nailiyyətlər ulu öndərin Yeni Azərbaycan Partiyasının proqramında müəyyənləşdirdiyi vəzifələrin yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur. Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında inkişaf davamlı xarakter almış, bütün iqtisadi göstəricilər üzrə artım dinamikası qorunub saxlanılmışdır. Bu illər ərzində muxtar respublikada ümumi daxili məhsul istehsalı 22 faiz artaraq 2 milyard 900 milyon manata çatmışdır.

Naxçıvan Muxtar Respublikası əvvəlki illərdə olduğu kimi, geniş quruculuq meydanına çevrilmiş, 105 elm və təhsil ocağı, 188 mədəniyyət və 15 idman obyekti, 81 səhiyyə müəssisəsi,131 inzibati bina, 30 körpü tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, 458 kilometrlik yeni avtomobil yolu çəkilmiş, sahibkarlığın inkişafına diqqət artırılmış, 20 minə yaxın iş yeri açılmışdır.

Muxtar respublikada müdafiə, ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər də ardıcıl şəkildə davam etdirilmiş, 100-dən çox hərbi obyekt, 491 istehsal və xidmət sahəsi, yeni su və günəş elektrik stansiyaları istifadəyə verilmişdir.

Əldə olunmuş nailiyyətlər demoqrafik inkişafa da öz təsirini göstərmiş, ötən dövrdə muxtar respublikanın əhalisi artaraq 461 min nəfərdən çox olmuşdur.

Hörmətli konfrans iştirakçıları!

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir ki, ***“Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik”.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyətində yeni dövr başlayır. Təşkilat öz işini bundan sonra da ümummilli liderimiz Heydər Əliyev tərəfindən partiyanın proqramında irəli sürülmüş və ölkə PrezidentininYeni Azərbaycan Partiyasının yeddinci qurultayında müəyyənləşdirdiyi vəzifələrin icrası istiqamətində qurmalıdır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı partiya-təşkilat işini daha da gücləndirməli, partiya orqanlarının və yerli təşkilatların fəaliyyəti yeni tələblərə uyğunlaşdırılmalıdır.

Müstəqilliyimizin və dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi Yeni Azərbaycan Partiyasının əsas fəaliyyət istiqamətidir. Ümummilli liderimiz deyirdi ki, ***“Azərbaycanda dövlətin qarşısında duran vəzifələr, Yeni Azərbaycan Partiyasının qarşısında duran vəzifələrdir”.*** Dahi şəxsiyyətin bu fikirləri Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı tərəfindən bundan sonra da əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilməli, partiya üzvləri ictimai-siyasi proseslərdə və həyata keçirilən sosial-iqtisadi islahatlarda yaxından iştirak etməlidirlər.

Milli dövlətçilik təfəkkürünə və zəngin elmi-intellektual potensiala malik olan, vətənpərvər və ictimai cəhətdən fəal gənclər yetişdirmək Yeni Azərbaycan Partiyasının Proqramında əsas vəzifə kimi müəyyənləşdirilmişdir. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi gənclərlə işi və onların sağlam vətəndaş kimi formalaşmasını, ulu öndərin siyasi xəttinə sədaqət ruhunda tərbiyəsini diqqətdə saxlamalı, bu istiqamətdə sistemli və nəticəli tədbirlər həyata keçirilməlidir.

Yeni Azərbaycan Partiyası əqidə partiyasıdır. Ona görə də partiya sıralarına yeni üzvlərin qəbulu zamanı sağlam təfəkkürlü, dövlətçiliyə bağlı və vətənpərvər gənclərə üstünlük verilməlidir.

O partiya güclüdür ki, onun cəmiyyətin hər bir təbəqəsini əhatə edən ideoloji istiqamətləri vardır. Bu səbəbdən də partiyada qadınlarla işə ciddi diqqət yetirilməli, onların muxtar respublikanın ictimai-siyasi həyatında aktiv iştirakı təmin olunmalıdır.

Ümummilli liderimiz deyirdi ki, ***“Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir”.*** Çalışıb ona nail olmaq lazımdır ki, hər bir üzv öz fəaliyyətində partiyanın prinsiplərini əsas götürsün, onun nüfuzunu qorusun, Azərbaycançılıq ideyalarını təbliğ etsin, ictimai-siyasi məsələlərdə aktivlik göstərsin, fəal vətəndaş mövqeyi tutaraq milli dəyərlərimizin, adət-ənənələrimizin qorunması və yaşadılması işində yaxından iştirak etsin.

Partiya işinin təşkilində vacib məsələlərdən biri də düzgün təbliğat mexanizminin müəyyənləşdirilməsidir. Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan inkişaf, qazanılmış tarixi qələbə məhz Yeni Azərbaycan Partiyasının platformasında nəzərdə tutulmuş vəzifələrin icrası nəticəsində mümkün olmuşdur. Ona görə də Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı yerli təşkilatlarla birlikdə vətəndaşlarla işə üstünlük verməli, həyata keçirilən tədbirlərin mahiyyəti onlara düzgün izah olunmalı, səmərəli təbliğat mexanizmi qurulmalıdır.

Partiyamızın Naxçıvanda yaranaraq təşkilatlanması onun muxtar respublika təşkilatının nümunə gücündə olmasını şərtləndirir. Bu amil daim diqqətdə saxlanmalı, partiya işi daha mütərəqqi formada inkişaf etdirilməli, qarşıya qoyulan tapşırıqların icrasına və nizam-intizama nəzarət gücləndirilməlidir.

Hörmətli konfrans iştirakçıları!

Yeni Azərbaycan Partiyasının məramnaməsi müstəqil Azərbaycan dövlətinin milli ideologiyasıdır. Ulu öndər Heydər Əliyevin yolu dünən və bu gün olduğu kimi, gələcəkdə də dövlətçiliyimizin və müstəqilliyimizin təminatıdır. Ölkə Prezidentinin də dediyi kimi: ***“Bizim siyasətimiz Heydər Əliyev siyasətidir. Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız Azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq”.***

Bu yolda hamınıza uğurlar arzulayıram.

Sağ olun!

## Naxçıvan Dövlət Universiteti “Stomatologiyada müasir innovasiyalar II” beynəlxalq konfransına ev sahibliyi edib



*Naxçıvan Dövlət Universitetində “Stomatologiyada müasir innovasiyalar II” beynəlxalq konfransı keçirilib. Konfransdan öncə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Plenar iclasda şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Universitetin Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov innovasiyaların müasir elmə, xüsusən də səhiyyə sahəsinə gətirdiyi yeniliklərdən bəhs edib.*

İclası giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, universitetdə 2012-2013-cü ildən tədrisi aparılan Stomatologiya ixtisasında 303 tələbə təhsil alır ki, bunlardan 201-i xarici ölkə vətəndaşıdır. Bildirilib ki, fakültənin əsas binasında yaradılan müasirtipli “Stomatoloji simulyasiya kabinəsi” 13 ədəd diş simulyatoru-fantom ilə təchiz edilib. Tədrisin yüksək səviyyədə təşkili, nəzəri bilikləri təcrübə yolu ilə möhkəmlətmək məqsədilə əsas praktik dərslər bu kabinədə keçilir. Fakültədəki diş texniki kabinəsində tələbələr müxtəlif diş maketləri, protezlər üzərində işlər aparmaq imkanı əldə edirlər. Rektor onu da vurğulayıb ki, universitet xəstəxanasında hazırda pediatrik, terapevtik, 2 ədəd ortopedik, implantoloji olmaqla, 6 stomatoloji kabinə fəaliyyət göstərir. Rektor tələbələrin qardaş ölkənin müxtəlif universitetlərində təcrübələrini davam etdirdikləri barədə məlumat verib. Qeyd edib ki, stomatoloq həkimlər və tələbələr mütəmadi olaraq müxtəlif respublika və beynəlxalq miqyaslı konfranslarda, simpoziumlarda, beynəlxalq layihələrdə iştirak edirlər. Rektor rezident və tələbələrin təcrübələrinin möhkəmlənməsində konfransın əhəmiyyətini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Təltif və kadrlarla iş sektorunun müdiri Elşən Yolçuyev stomatologiyanın inkişafında Azərbaycan İmplantoloq İctimai Birliyinin xüsusi rolu olduğunu önə çəkib. Qeyd edib ki, ictimai birliyin təşkilatçılığı ilə mütəmadi olaraq seminar və elmi-praktik konfranslar keçirilir. Bu isə tələbələrin gələcək fəaliyyətlərində peşəkar həkim kimi formalaşmasında mühüm rol oynayır.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ictimai birliyin bu sahədəki fəaliyyəti yüksək qiymətləndirilib və Naxçıvan Muxtar Respublikasında həkim-stomatoloqların hazırlanması sahəsində fəaliyyətlərinə görə Azərbaycan İmplantoloq İctimai Birliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilir. Fəxri fərman birliyin sədri Cabbar Həsənova təqdim olunub.

Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənov Ali Məclis Sədrinin qayğısı ilə muxtar respublika stomatologiyasına verilən töhfələrdən bəhs edib. Cabbar Həsənov həm öz adından, həm də İmplantoloq İctimai Birliyi adından göstərilən qayğıya görə minnətdarlığını ifadə edib və belə görüşlərin bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov Stomatologiyada innovasiyalar konfransının 2004-cü ildən bəri keçirildiyini diqqətə çatdırıb. Bildirilib ki, hətta pandemiya dövrünün ağır şərtləri daxilində konfrans onlayn olaraq həyata keçirilib. Nazir qeyd edib ki, muxtar respublikada stomatoloqların yetişməsində Cabbar Həsənovun xüsusi əməyi vardır. Vurğulanıb ki, bu cür görüşlərin, tədbirlərin nəticəsidir ki, muxtar respublikada stomatologiya müasir inkişaf mərhələsinə çatıb.

Sonra universitetin tanıtım videoçarxı nümayiş olunub.

Azərbaycan İmplantoloqlar Birliyi üzvlərinin iştirak etdiyi konfransda 13 stomatoloqun çıxışı dinlənilməklə bərabər Rusiya və Türkiyədən onlayn qoşulanların təqdimatları da olub.

Qeyd edək ki, İncəsənət fakültəsinin sərgi salonunda konfransın baş sponsoru “Caspident” şirkətinin məhsulları nümayiş olunub. 1995-ci ildən fəaliyyət göstərən “Caspident MMC” stomatoloji avadanlıq, məhsul və alətlərin satışını həyata keçirir. “Caspident”, həmçinin “Caspident Academy” adı altında yerli və xarici konfrans, seminar və kursların təşkilini həyata keçirərək, stomatoloji sahədə yeniliklərin stomatoloqlara daha əlçatan olması üçün daim təşəbbüs göstərir.

Məlumat üçün onu da bildirək ki, sərgidə, həmçinin 2008-ci ildən etibarən fəaliyyətə başlayan “Odontos” şirkətinin məhsulları da sərgilənib. Amerika, Avropa və Asiya istehsalı olan məhsul və avadanlıqlara malik “Odontos” 55-dən çox xarici şirkətin Azərbaycandakı rəsmi distribütorudur.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Ordubad rayonunda 2020-2021-ci tədris ilində ali və orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələrinin müzakirəsi keçirilib.*

## Nəticələr müzakirə olunub

Tədbiri giriş sözü ilə açan Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov qeyd edib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində rayonda müasir təhsil infrastrukturu yaradılıb, bütün təhsil müəssisələri üçün ən yeni tələblərə cavab verən binalar tikilib, maddi-texniki bazası gücləndirilib. Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, Ordubad Rayon Təhsil Şöbəsinin tabeliyində 32 tam orta, 2 ümumi orta məktəb, 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ümumtəhsil məktəblərində 465 sinifdə 5155 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 855 müəllim məşğul olur. Məktəblərdə 665 kompüter və 85 elektron lövhə quraşdırılıb. Məktəblərin kitabxanaları 100 minə yaxın latın qrafikalı bədii ədəbiyyat və 94 mindən çox dərsliklə təmin olunub, bütün təhsil müəssisələrində idman zalları, açıq idman qurğuları, istilik sistemi quraşdırılıb, 6 məktəbdə STEAM kabinəsi yaradılıb. Hazırda 9 məktəbdə STEAM kabinəsi yaradılır.

Bildirilib ki, Ordubad Rayon Təhsil Şöbəsinin tabeliyində olan ümumtəhsil məktəblərinin 2020-2021-ci tədris ili üzrə 259 məzunundan 240-ı və ya məzunların 92,7 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak edib. Onlardan 168-i ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub, 21 məzun imtahanlarda 500-700 bal arası nəticə göstərib. Təhsildə qazandıqları nailiyyətlərə görə məzunlardan 1-i “Gümüş” nişana, 3-ü isə fərqlənmə attestatına layiq görülüb.

Sonra rayon təhsil şöbəsinin əhatə etdiyi məktəblərin dördillik fəaliyyəti ayrı-ayrılıqda müzakirə edilib. Bildirilib ki, rayonun 10 məktəbinin məzunlarının hamısı, 5 məktəbinin isə məzunlarının 73 faizdən çoxu ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Təhsil naziri rayonda fəaliyyət göstərən 32 tam orta məktəbdən 15 məktəbin nəticəsinin yaxşı olduğunu bildirib, həmin məktəblərin kollektivlərinə təşəkkür edib.

Sonda qəbul imtahanlarında ən yüksək nəticə göstərən 15 məktəbə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

“Şərq qapısı” – 100

# İnformasiya blokadasından demokratik mətbuata

***Hələ XIX əsrin ortalarında mətbuatımızda ilk qığılcımlar yeni alovlanmağa başlasa da, Azərbaycan oxucusu doğma dilində ilk mətbu orqanı bir müddət gözləməli oldu. Nəhayət, 1875-ci il iyulun 22-də dövrün maarifçi vətənpərvər və ziyalısı Həsən bəy Zərdabi tərəfindən milli mətbuatımızın ilk qaranquşu və təməl daşı sayılan “Əkinçi” qəzeti təsis edildi. Qəzet gözlənildiyi kimi ilk günlərdən bəri bir sıra ciddi əngəl və süni maneələrlə üzləşməyə başladı. Belə ki, həmin dövrdə mətbuat üzərində təzyiq və nəzarət o qədər güclü idi ki, “Əkinçi”nin nəşrinə icazə alarkən, ilk növbədə, qəzetə senzuranı həyata keçirəcək şəxs müəyyən edilmişdi. Bu “çətin və məsuliyyətli vəzifə” isə o dövrdə Bakının general-qubernatoru olan Staroselskiyə tapşırılmışdı. Beləliklə, “Əkinçi” cığırı ilə başlanan uzun və şərəfli yol 123 il ərzində senzura buludlarını başı üzərində gəzdirdi. Özü ilə bərabər sərt sazaq küləyi gətirən senzura buludları milli mətbuat alovumuzu dəfələrlə közərtdi, lakin söndürə bilmədi. Sonralar “Əkinçi”nin ideya və ənənələrini davam etdirən “Ziya”, “Kəşkül”, “Kaspi” “Şərqi-Rus”, “Molla Nəsrəddin”, “Açıq söz”, “Füyuzat”, “Zənbur”, “Babayi-əmir” kimi qəzet və jurnallar mətbuatımızda demokratik cərəyanın bərqərar edilməsində müstəsna rol oynadı. Əfsus ki, fəaliyyət göstərdikləri zaman müddətində “Əkinçi” kimi həmin qəzet və jurnallar da senzura taleyindən yaxa qurtara bilmədi.***




### *Tənəzzüldən tərəqqiyə: mətbuatın özünəqayıdışı və yeni inkişaf mərhələsi*

XX əsrin müxtəlif dövrlərində mətbuatımız çox böyük çətinliklərlə üzləşsə də, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, mətbuatın da inkişafında yeni bir mərhələ, dönüş nöqtəsi başladı. Tarixi faktlara nəzər yetirdikdə aydın olur ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi və israrlı tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra milli mətbuatımız da, məhz ikinci həyatına qovuşdu.

Ulu öndərin rəhbərliyi ilə hazırlanan ölkə Konstitusiyasında ilk dəfə fikir və söz azadlığının öz əksini tapması, “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanla senzuranın ləğv edilməsi, şübhəsiz ki, 146 il sonra mətbuat qığılcımlarının yenidən alovlanmasından xəbər verirdi. Bu Fərmandan cəmi bir il sonra 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanununun və digər hüquqi-normativ aktların qəbulu, habelə 2001-ci ildə Azərbaycan jurnalistlərinin birinci qurultayının keçirilməsi və Mətbuat Şurasının yaradılması ilə mətbuat cəmiyyətin bütün sahələrinə nüfuz edən, onun dinamik şəkildə demokratikləşməsinə təsir göstərən qüdrətli vasitəyə çevrildi.

Əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulan mətbuatın inkişafına dövlət qayğısı siyasəti yeni mərhələdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkə Prezidenti fəaliyyətində hər zaman bu ənənəyə sadiq qalaraq kütləvi informasiya vasitələrinin inkişafına şərait yaradılmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. Bu baxımdan ötən dövrlər ərzində mətbuat orqanlarının maddi-texniki imkanlarının daha da möhkəmləndirilməsi və jurnalist əməyinin layiqincə qiymətləndirilməsi sahəsində fərman və sərəncamlar imzalanmış, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər reallaşdırılmışdır.

Qürurlu haldır ki, bu gün mətbuatın səmərəli fəaliyyəti üçün yaradılmış demokratik şərait ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında sürətli inkişaf dövrünə qədəm qoymuş və mətbuata davamlı qayğı dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Təbii ki, mövcud əlverişli mühiti şərtləndirən əsas amillər isə mühüm əhəmiyyətə malik Dövlət proqramlarının vaxtında və dəqiq icrası, davamlı və dayanıqlı inkişaf tempi, həmçinin ictimai həyatın bütün sahələrində əldə edilən yeniliklərdir.

### *Blokadada mütərəqqi mətbuat ənənələri və ya informasiya inqilabı*

Məlum olduğu kimi, məkrli və xain Ermənistanın ötən əsrin 90-cı illərində torpaqlarımızın işğalı nəticəsində bütün kommunikasiya xətləri və teleradio ötürücü qurğular tamamilə məhv edilmiş, nəticə etibarilə, Naxçıvan Muxtar Respublikası həm də ağır informasiya blokadasına salınmışdı. Lakin tarixin bütün çətin və taleyüklü sınaqlarından böyük iradə və qətiyyətlə çıxmağı bacaran muxtar respublikamız ötən 25 il ərzində Azərbaycan milli mətbuatının inkişafı tarixində müstəsna rol oynamış, çətin blokada şəraitində mükəmməl media siyasəti formalaşdıraraq informasiya təhlükəsizliyinə nail olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamına əsasən muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən mətbuat orqanları normal iş şəraiti ilə təmin edilmiş, onların həm maddi-texniki baza, həm də kadr potensialları gücləndirilmişdir. Ötən zaman ərzində Televiziya və Radio, Mətbuat şuralarının yaradılması, o cümlədən onların fəaliyyət istiqamətlərinin daha da genişləndirilməsi bu sahədə görülən işlərin məntiqi davamıdır. Muxtar respublikada milli mətbuatımızın inkişafına hər zaman xüsusi diqqət və davamlı qayğı ilə yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mətbuatın inkişafı istiqamətində yorulmaz və fədakar əməyinə görə “Mətbuatın dostu” fəxri adına layiq görülməsi də, şübhəsiz ki, bu sahədə görülən işlərin nəticəsidir.

### *“Şərq qapısı”: tarixin 100 ili və ya 100 ilin tarixi*

Müasir cəmiyyətimizdə ictimai fikri formalaşdıran, xalqın maarifləndirilməsi, onların dünyagörüşünün və milli şüurun formalaşdırılması naminə qələmə alınan yazıları ümumi kütləyə çatdıran vasitələrdən biri də qəzetlərdir. Müxtəlif ictimai-siyasi sahələrdə gedən inkişaf proseslərinin güzgüsünə çevrilən qəzetlər öz əhəmiyyəti və aktuallığı ilə Naxçıvan Muxtar Respublikasında da diqqətdə saxlanılan prioritet məsələlərdən biridir. Təbii ki, qurub-yaratmaq işin bir tərəfidirsə, əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır. Bu gün muxtar respublika paytaxtının, eləcə də hər bir regionun dövriyyəliyi təmin edilən ayrıca mətbu orqanı da vardır.

Əminliklə demək olar ki, mövzu aktuallığı, müasirliyi, əhəmiyyəti və publisist kəskinliyi ilə fərqlənən, novatorluğu və orijinallığı ilə diqqəti daim cəlb edən, həmçinin jurnalistika sahəsinə marağı olan və bu cığırla yeni addımlayanlar üçün məktəb rolunu oynayan “Şərq qapısı” qəzetinin mətbuat tariximizdə xidmətləri ölçüyəgəlməzdir. “Şərq qapısı” qəzeti redaksiyasının, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin 2010-cu il iyulun 22-də yeni binasının və mətbəənin istifadəyə verilməsi ilə qəzetin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, qəzetin normal fəaliyyəti üçün bütün zəruri imkanlar yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixdə imzaladığı Sərəncam Naxçıvanın birəsrlik tarixinin, mədəniyyətinin, elminin yetirdiyi jurnalistlər nəslinin əməyinə verilən böyük qiymətin növbəti təzahürüdür. Şübhəsiz ki, Ali Məclis Sədrinin müvafiq Sərəncamı muxtar respublikada dövlət-mətbuat münasibətlərini daha da gücləndirmiş, böyük jurnalistika məktəbi yaradan “Şərq qapısı” qəzetinin əməkdaşlarına stimul olmuşdur. Muxtar respublikamızın keçdiyi şərəfli və uzun yola şahidlik edən “Şərq qapısı”qəzeti birəsrlik tarixi boyunca mətbuatımızın inkişafına, elmin və ictimai fikrin formalaşmasına böyük töhfələr vermiş, o cümlədən informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizə aparmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”*** fikirləri birəsrlik şərəfli inkişaf yolu keçən “Şərq qapısı” qəzetinin bütün zaman dövrləri üçün aktuallığını, əhəmiyyətini və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini bir daha təsdiq edir.

### *Muxtar respublikada teleradiolar hərtərəfli inkişaf mərhələsinə yüksəlib*

Bu gün qəzetlərlə yanaşı, elektron medianın, televiziya və radioların da, bütövlükdə, cəmiyyət qarşısındakı sosial məsuliyyəti, istər tamaşaçının, istərsə də dinləyicinin dünyagörüşünün zənginləşməsində, mənəvi-əxlaqi dəyərlərin formalaşmasında əhəmiyyəti olduqca böyükdür. Ən müasir rəqəmsal bazaya malik olan “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, eləcə də “Naxçıvanın səsi” radiosu və “Kanal 35” televiziyası yüksək bacarığa, peşəkarlığa və səriştəyə malik kadr potensialı ilə cəmiyyətin informasiya tələbatını tam ödəyə bilir, çətin, məsuliyyətli, eyni zamanda şərəfli vəzifələrini uğurla yerinə yetirirlər. Müasir cəmiyyətin jurnalistlərdən haqlı olaraq böyük gözləntiləri vardır. İnsanlar IV hakimiyyətin nümayəndələrindən jurnalistikanın prinsiplərində də müəyyən olduğu kimi, operativlik, dəqiqlik, həmçinin cəmiyyətdə baş verən bütün hadisələrə obyektiv və qərəzsiz mövqe gözləyir. Əminliklə demək olar ki, muxtar respublikada sağlam və peşəkar mətbuatın formalaşdırılmasını şərtləndirən amillərdən biri də məhz jurnalistlərin müxtəlif mövzulara rahatlıqla müraciətetmə imkanlarının olması, o cümlədən cəmiyyətdə bəzi nöqsanlarla bağlı tənqidi materialların hazırlana bilməsidir. İstər televiziyalarda, istərsə də qəzetlərdə analitik təhlil edilən və tənqidi xəbərlərin hazırlanması muxtar respublikada söz və mətbuat azadlığının, jurnalistlərin müstəqil və sərbəst fəaliyyət göstərməsinin əyani nümunəsidir.

Məlum olduğu kimi, müasir dünyanın yeni çağırış və tələblərindən biri də internetdir. Sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvan Muxtar Respublikasında jurnalistlərin peşəkar fəaliyyətinə, insanların informasiya tələbatının tam, dolğun ödənilməsinə və qədim diyarımızla bağlı məlumatların daha geniş auditoriyaya çatdırılmasına böyük ölçüdə təsir edib. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikanın yaşayış ərazilərinin 99,5 faizində mobil internet, 99,1 faizində isə genişzolaqlı internet xidmətləri göstərilir.

Naxçıvan Muxtar Respublikasında kütləvi informasiya vasitələrinin müstəqilliyinin dəstəklənməsi, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığın genişləndirilməsi, habelə jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması istiqamətində kompleks tədbirlər uğurla davam etdirilir. Təbii ki, Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, 2021-ci il 21 yanvar tarixli Fərmanla isə fondun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin yaradılması da bu istiqamətdə reallaşdırılan ardıcıl tədbirlərin məntiqi davamıdır.

### *Muxtar respublikanın bugünkü gəncliyi mətbuatımızın sabahkı uğurudur*

Şübhəsiz ki, bu gün müstəqil mətbuatın formalaşdırılması və inkişaf etdirilməsində muxtar respublika gəncləri böyük pay sahibidir. Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasının müxtəlif kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin mütləq əksəriyyəti də məhz gənclərdən ibarətdir. Onların mətbuat orqanlarına cəlbi prosesi, peşəkar jurnalist kimi formalaşması prioritet sahə kimi müəyyən edilmiş, gənclərlə kütləvi informasiya vasitələri arasında mənəvi körpü yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu mövzunun aktuallığını və əhəmiyyətini hər zaman diqqətdə saxlayaraq gənc jurnalistlərin səmərəli fəaliyyətlərini yüksək qiymətləndirmişdir. Ali Məclis Sədrinin milli mətbuatımızın 145 illiyi münasibətilə keçirilən tədbir zamanı gənc jurnalist ailəyə yeni mənzilin orderini təqdim etməsi də bu fikirləri bir daha təsdiq edir.

Eyni zamanda gənc jurnalist kadrların hazırlanması, işə cəlb olunması, xarici və ölkə media nümayəndələrinin onlarla görüşü müstəqil mətbuatın formalaşdırılması baxımından çox vacib amildir. Bu gün Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan gənclər Universitet televiziyası, “Nuhçıxan” radiosu və “Yeni fikir” qəzetində nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi mətbuatımıza öz töhfələrini verirlər. Xüsusilə qeyd etmək lazımdır ki, peşəkar kadrların hazırlanması işində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamı mühüm əhəmiyyət kəsb edir.

### *Naxçıvan mediası Vətən müharibəsi dövründə informasiya cəbhəsində*

Napoleon imperiyasının diplomatı olan Taleyran deyirdi ki, “Əgər kimin informasiyası çoxdursa, onun döyüş meydanında üstünlüyü də labüddür”. Məlumatlılıq, yeni informasiyalara sahib olmaq, təkcə mətbuat sahəsində deyil, döyüş meydanında da uğurlu mübarizənin əsas şərti hesab edilir. Bu baxımdan ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun 44 gün ərzində əldə etdiyi tarixi zəfər və parlaq qələbədə Naxçıvan mediasının da üzərinə böyük yük və vəzifələr düşüb. Etiraf etmək lazımdır ki, bu təkcə siyasi və hərbi arenada deyil, həm də arxa cəbhədə aparılan ağır informasiya savaşı idi. Vətən müharibəsinin ilk günlərindən etibarən muxtar respublikada kütləvi informasiya vasitələrinin əməkdaşları ictimaiyyətə mütəmadi olaraq operativ məlumatlar çatdıraraq müxtəlif mövzuları peşəkarlıqla işıqlandırmış, cəmiyyətin informasiya tələbatını tam və dolğun ödəməklə bu savaşın məğrur, yenilməz əsgərinə çevrilmişdir. Naxçıvan mediası qısa müddət ərzində yüksək ovqat və ruh yüksəkliyi formalaşdırmaqla bərabər, apardığı düzgün informasiya siyasəti ilə də Qarabağda baş verən həqiqətləri geniş auditoriya kütləsinə çatdıra bildi. Müharibə şəraitində mediamızın vacib nüanslarından biri də rəsmi mənbələrə istinad idi. Erməni və dünya ictimaiyyətinə yalan və əsassız məlumatlar verən Ermənistanın hərbi-siyasi rəhbərliyi çıxış yolunu öz xalqını mütəmadi olaraq aldatmaqda görürdü. Nəzərə almaq lazımdır ki, həmin zaman paylaşılan hər bir qeyri-rəsmi məlumat cəmiyyətdə böyük təlaş və çaşqınlıq yarada bilərdi. Bu baxımdan “Nuhçıxan” İnformasiya Agentliyi və “Şərq qapısı” qəzetinin rəsmi saytı daim olaraq geniş izləyici kütləsini operativ qaydada məlumatlandırmış, habelə tam və doğru informasiyaların əldə edilməsi üçün əsas istinad mənbələrinə çevrilmişdir. Bəli, 44 günlük Vətən müharibəsində əli qələm tutan hər bir jurnalist öz cəbhəsinin qalib əsgəri, qalib xalqın vətəndaşı oldu.

***P.S.*** *Ənənəlik və novatorluğun vəhdət təşkil etdiyi milli mətbuatımız Naxçıvan Muxtar Respublikasında da inkişafdan intibaha sürətli keçid dövrünü yaşamaqdadır. Əminliklə demək olar ki, muxtar respublikamızda dövlətimizin və müstəqilliyimizin milli maraqlarını hər zaman rəhbər tutan güclü mətbuat ordusu formalaşıb, söz, məlumat və mətbuat azadlığı mütləq surətdə təmin olunub. Bu gün zəngin dövlətçilik ənənələrinə malik qədim diyarımızda fədakar və cəfakeş qələm sahibləri böyük publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin “Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir” amalına xidmət edir.*

**Arif BAYRAMOV**

***Məqalə “Şərq qapısı” qəzetinin 100 illiyi münasibətilə keçirilən yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

***70 yaşın astanasında olan şair Xanəli Kərimli klassik Azərbaycan və dünya poeziyasından bəhrələnməklə çağdaş ədəbi prosesin tələblərini, istəklərini duyaraq öz sözünü deməyi bacaran söz adamlarındandır. Xanəli Kərimlinin bir sənətkar kimi yüksəlməsinə özünə qarşı tələbkarlığı, yazdıqları ilə kifayətlənməməsi, məsuliyyət hiss etməsidir. O, tələbkarlığı nəticəsində daim təkmilləşib və təkmilləşmə prosesində yeni-yeni əsərlər yazıb. Bu gün yazdıqları ilə kifayətlənməyib, sabah üçün axtarışlar aparıb, əsərlərini ümumbəşəri hisslərlə rövnəqləndirib, özünəməxsus istedadı ilə müasirləri arasında tanınıb. Akademik İsa Həbibbəylinin təbirincə desək, "Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir".***

# Odu səngiməyən şam ürəyimi, Ey Vətən, səninçin daşıyıram mən



Xanəli Kərimli ədəbiyyatımızda həm də sevilə-sevilə oxunan, yolu gözlənilən şairlərdəndir. Bəs onu oxucularına sevdirən nədir? Məncə, poetik təfəkkür aləmində özünəməxsusluğu, orijinallığı ilə seçilməsi. Poetik sözün müqəddəsliyini, paklıq və duruluğunu qoruyub saxlamaq qabiliyyəti. Yaşadığı aləmdə duyub-düşündüklərini, müşahidə etdiklərini, poeziya dili ilə oxucularına çatdırmaq ustalığı. Ümumiyyətlə, təbiilik, səmimiyyət Xanəli müəllimi oxucularına sevdirən əsas cəhətlərdəndir.

Şair yaradıcılığının bütün mərhələlərində sənəti, əqidəsi, poetik amalı ilə Vətənə həqiqi övlad olmaq idealı ilə yaşamış, yazıb-yaratmışdır. O bununla fəxr etməyə haqlıdır ki, bircə misrası belə, Vətən torpağına məhəbbət, doğma xalqa sevgi, bəşəri ideala məftunluqdan kənarda yaranmamışdır:

*Hələ bir kimsədən minnət çəkmədən*
*Beləcə bir ömür yaşayıram mən.*
*Odu səngiməyən şam ürəyimi,*
*Ey Vətən, səninçin daşıyıram mən.*

Xanəli Kərimli siyasi-ideoloji maraq axtarmadan həqiqəti səmimi şəkildə açıqlayır. O, sözlərinin kimlərinsə qəlbinə toxunacağından çəkinmir. Bu zaman yalnız vicdanının, sənətinin qulu olur. Şair sənətin, şeirin qulu olmasa, ürəklərə hakim kəsilə bilməz, çünki şair yazmamışdan əvvəl yaşayır, duyğularını balası kimi qəlbində bəsləyir. Məlum məsələdir ki, ürəkdən gəlməyən söz ürəklərə yol tapa bilməz. Xanəli Kərimli poeziyasının özünəməxsusluğunun mayası da budur. O, həqiqət qarşısında hər bir kəsi, ilk növbədə isə özünü imtahana çəkir. Fərqinə varmır ki, kimisə özündən incik salar, ya da kiminsə qəzəbinə tuş gələ bilər. Bütün bunlar onun səmimiyyətidir, poeziyasının spesifik cəhətidir. Şərəfi, namusu, mənliyi, ləyaqəti misralardan boylanan bu şeirləri oxuduqca oxumaq istəyirsən, onlarda məsum insan taleyindən nigaran şairin məddahlığa, yaltaqlığa, qorxaqlığa, cəhalətə boyun əyməyən qürurunu görürsən.

Əsl şair heç zaman özünü düşünmür. Əsl şair əksər vaxt öz qayğılarını, dərdlərini unudur. Cəmiyyətlə, həyatla, mühitlə nəfəs alır. Bu mənada, Xanəli Kərimlinin şeirləri göstərir ki, o, cəmiyyətdən, həyatdan, mühitdən təcrid olunmağı sevmir. Ona görə də onun poetik "mən"i o qədər tələbkardır ki, onun heç ölçüsünü də müəyyənləşdirmək mümkün deyildir. Onun poetik "mən"i nəinki insanları, həm də dünyanı imtahana çəkir, az qala dünyaya meydan oxuyur, onu qınaq yerinə çevirir:

*Ay Xanəli, çox özünü yorma sən,*
*Bu dünyadan düz bazarlıq görməzsən*
*Farağat dur, yoxsa xeyir görməzsən,*
*Dili şəkər, qəlbi zəhər dünyadı.*

Hər şeirin yaranışında şairin mənəvi durumu, onun psixoloji aləmi böyük rol oynayır. İçini kədər, tənhalıq bürümüş insan heç zaman xoşbəxtliyə qafiyə axtarmır, hətta şair insanı insan edən, insanları bir-birinə yaxınlaşdıranın kədər olduğu fikrini də təsdiqləyərək yazır:

*Kainatın sirri də*
*Onun özünə kədər.*
*İnsan kədər içində*
*Öz-özünü kəşf edər.*

Şairlərin taleyinə bəxt kəmliyi, taleyüklü əzablar, Vətən həsrəti, dərd üstdən dərdlər başqalarından daha çox yazılır. Bəlkə də, bu, ona görədir ki, bu insanların Allaha yaxın qəlbi, yüksək hissiyyatı, güclü duyğuları var. Başqa sözlə, həyatın amansızlığına, şərtliyinə qalib gəlmək və onun məhvinə qədər döyüşkən ruhla yaşamaq, bu insanların alın yazısıdır desək, yanılmarıq. Xanəli Kərimli Şahbuzun mavi göylərinə oxuduğu şeirlərin odunda-alovunda qovrula-qovrula sənət dünyasına gəlib. Yana-yana yazıb, yaza-yaza yanıb. Belə olmasaydı:

*İçim dərdlər qəbiristanı*
*Çölüm ruhlar aləmidir.*
*İçim, çölüm bir atəşgah*
*Sanki qiyamət dəmidir.*

*Çölümdən baş açammıram*
*İçimdən də qaçammıram*
*Nə sirdir ki, ey yaradan,*
*Bu atəşgahda yanıram?*

– deməzdi.

Xanəli müəllim həm bir şair, həm də bir alim kimi tanınır. Əlbəttə, şairlik vergidir, alimlik isə onun həyatda zəhmətlə əldə etdiyidir. Mən onun şairliyi ilə alimliyini müqayisə etmək istəmirəm. Ona görə ki, o, şair və alim kimi bütövdür. Ancaq bununla belə, Xanəli Kərimli deyəndə, mənim gözlərim önündə bir şair obrazı canlanır. Məncə, o, nə qədər elmi yaradıcılıqla məşğul olsa da, 100-dən artıq elmi məqalə yazsa da, namizədlik işini çox uğurla müdafiə edib, doktorluq işi üzərində işləsə də, daha çox şairdir. Nə yazırsa yazsın, şairlik sehrindən azad ola bilmir, hissiyatına, duyğusuna və təbinə üstünlük verir. Odur ki, tərəzisinin şeir gözü daha ağır gəlir. O, doğrudan da, şair kimi daha odlu, alovlu, üsyankar və mübarizdir, zamanın sərhədinə sığmayandır, dünyanın dərdlərinə dözməyəndir, hər şeyə "mənə nə" deyənlərlə barışmazdır:

*Çin tasdan qorxan kimi*
*Üşənirik tənqiddən,*
*Qorxuruq ki, desək ki,*
*Bu əsər, əsər deyil*
*Sən yazdığın fikri*
*Deyibdir filan şair.*
*Və ilaxır və sair...*
*Kimlərsə küsər bizdən*
*Sən də denən-mənə nə?!*
*Mən də deyim-mənə nə?!*
*O, da desin-mənə nə?!*
*Bəs görəsən-Kimə nə?!*

Dünyanın əl içi boyda bir yerində, ulu Məmməd Araz torpağında dünyaya göz açan Xanəli Kərimlinin şeir-sənət dünyası kökü min illərin o üzündə dayanan qan yaddaşına söykənir. Onun mayası sözlə yoğurulub, sözlə tutulub, nağıl, bayatı ilə cilalanıb, poeziyasının hər sətrinə nənələrimizin bişirdiyi çörəyin ətri, ulu babalarımızın canları bahasına qoruduğu torpağın qoxusu hopub. Xanəli Kərimli iliyindən tutmuş sümüyünədək kənd ruhunda köklənib, torpağa bağlı bir şair kimi torpaq ətirli, torpaq bərəkətli şeirlər yazıb:

*Mənə məlhəm olan, mənə can olan*
*Mənə ilik olan, mənə qan olan,*
*Səhləb çiçəyinin, kəklikotunun,*
*Baldırğan, ələyəz, bulaqotunun,*
*Cacığın, zirincin, çaşır, bolunun,*
*Quzuqulağının, yarpız kolunun*
*Gözün yolda qoyub, qəlbin qırmışam*
*Axı bu şəhərdə nə qazanmışam?..*

Bu misralarda çoxumuzun kövrək, xoş duyğularla xatırladığı kəndin, torpağın qoxusu bizi vurur. Bu misralar bizi bir anlıq da olsa, doğma yurda, keçmişimizə qaytarır. Onun yaradıcılığında təbiət şeirləri öz ecazkarlığı ilə seçilir. Şairi məftun edən təbiət görüntüləri öz təravətində şeirə gətirilə bilir. Vətənin könül oxşayan təbiəti, doğulub boya-başa çatdığı Mahmudoba kəndinin gözəllikləri hər an Xanəli Kərimlinin gözünün qabağındadır. O, təbiətin özünə layiq söz donu biçir. Hissin təsirilə özü necə dəyişirsə, oxucusunu da elə cığır-cığır, qaya-qaya, kol-kol gəzdirir və etiraf edək ki, insan elə gözəl yerlərdən ayrıldığına təəssüf edir. Sanki yenidən qanadlanıb o təbiətin ağuşuna qayıtmaq istəyir. Bəlkə, yalnız o, müqəddəslikdə qırılan, yanan, məhv olan arzularına qovuşa biləcəyinə inanır. Paklığı, təmizliyi, mərdliyi, cəsurluğu öz şeirlərində ana xətt kimi götürən şair füsunkar Şahbuz torpağının buz bulaqlarından, büllur çeşmələrindən su içib, ana təbiətin mələk baxışlarıyla üz-üzə, göz-gözə qalıb. Halal zəhmətilə dolanan kənd adamlarının ağır həyatı ürəyində cığır-cığır şırımlar açıb. Onun Musa Yaquba həsr etdiyi "Şeir yaza bilmirəm" adlı şeirində bu hisslər daha qabarıq əks olunur:

*Şeir yaza bilmirəm*
*Şəhərdə olanda mən.*
*Elə bil çatmır havam,*
*Boğuluram nədənsə*
*Heç özüm də bilmədən.*
*...Aldatmaqdır özünü*
*Şeir yazmaq şəhərdə.*
*Şəhərdə şeir yazan,*
*özün hələ bir yana*
*şeiri də salma dərdə!.*

O, sərraf dəqiqliyi ilə seçdiyi həyat hadisələrindəki sərraflıq missiyasını təbiətə münasibətində də qoruyub-saxlayıb. Sözlərin zərgər biçimi, misraların poetik yükü heyrət doğuracaq qədər dəqiq olduğu üçün insana sonsuz zövq bəxş edir.

Şairin yaradıcılığında çox azlıq təşkil edən sevgi şeirlərinin əksəriyyətində ifadə olunmuş hisslər dərindən yaşanmış, ömrün sevdalı çağlarının fikir və mühakimələrindən hasil olmuşdur, ancaq qəlbin və ağılın vəhdət prizmasından keçib büllurlaşan hiss və düşüncələridir.

Fikrimizcə, ədəbiyyatda əsas meyar və göstərici istedaddır. Şair Xanəli Kərimlinin şeirləri bir daha sübut edir ki, istedadlı olan, yaradıcı insanın şeirləri bütün zaman kəsimlərində yalnız bahar təravətli olur. 50 ilə yaxındır ki, sənətin əzablı, əzablı olduğu qədər də şərəfli yolu ilə uğurla addımlayaraq, minlərlə oxucu qəlbinə yol tapan Xanəli Kərimli ömrünün kamillik dövrünü yaşayır. Onun indiyə qədər çap olunan kitabları da kamil bir şair ömrünün təsdiqidir. Odu səngiməyən şam ürəyini yalnız Vətən üçün daşıyan Xanəli müəllimə daha böyük yaradıcılıq uğurları diləyirik! Azərbaycan naminə yaşanan bu ömrün işığı gur, ocağı sönməz olsun, Xanəli müəllim!

**Aypara BEHBUDOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## Maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşları ilə birlikdə rayonun Türkeş kəndində "Taxıl əkinlərinin optimal müddətdə aparılması, əkinlərin aparılmasında toxumların dərmanlanmasının məhsuldarlığa təsiri" və "Aqrotexniki tədbirlərin aparılmasında müasir texnika və texnoloji avadanlıqların rolu" mövzularında seminar keçirilib.

Seminarda nazirliyin əməkdaşlarından Bəhruz Qasımov, Valeh Mehdiyev, Məhəmməd Kərimov çıxış edərək aqrotexniki tədbirlərin aparılmasında texnikaların rolundan, payız əkinlərinin "Əkin atlasları"na uyğun aparılması və əkinlərin optimal müddətə başa çatdırılmasının vacibliyindən danışıblar.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı***
***Nazirliyinin mətbuat xidməti***

## Şahmat idman növünün inkişafı diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən növbəti interaktiv dərs keçilib. Naxçıvan Şahmat Mərkəzində keçilən dərs öncə ümumtəhsil məktəblərinin şa-



girdləri, daha sonra ümumtəhsil məktəblərində şahmat fənnini tədris edən müəllimlər, şahmat məktəbləri üçün təşkil edilib. Şagirdlər üçün beynəlxalq usta, müəllim Toğrul Həsənzadə tərəfindən "2 at müdafiəsinə aid oyunların təhlili" mövzusunda keçilən interaktiv dərsdə şahmata yeni başlayanlar üçün açıq debütlərdən istifadə etməyin daha səmərəli olduğu izah olunub. Müəllimlər üçün təşkil olunan seminarda şahmat oyununda kompüter proqramlarından istifadə haqqında məlumat verilib.

Beynəlxalq dərəcəli şahmat ustası Emin Hacıyev tərəfindən şahmat məktəbləri ilə keçilən interaktiv dərsdə etüd həllinin təhlili aparılıb.

Ümumilikdə, interaktiv dərs muxtar respublikanın 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər tərəfindən elektron lövhə vasitəsilə izlənilib.

* * *




Mersin Yenişəhər Bələdiyyəsi Atatürk Kültür Mərkəzində Türkiyə Şahmat Federasiyası və Mersin Böyükşəhər Bələdiyyəsinin təşkil etdiyi "Mersin Böyükşəhər Bələdiyyəsi V Uluslararası Satranç Turnuvası"na yekun vurulub. Turnirdə iştirak edən Şahmat Federasiyasının idmançılarından beynəlxalq usta Talıb Babayev "A" qrupunda 5,5 xal toplayaraq 50 yaşdan yuxarı şahmatçılar arasında birinci yerə layiq görülüb. Qeyd edək ki, bu qrupda 82 zəka sahibi mübarizə aparıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Televiziya və radioların fəaliyyəti diqqətdə saxlanılır

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası oktyabr ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləyib, Ali Məclis Sədrinin Fərman və sərəncamlarından, təsdiq olunmuş Dövlət proqramları və Tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını diqqətdə saxlayıb.

Oktyabr ayında Naxçıvan televiziyasının öz teleməhsulları efirin 72 faizini təşkil edib. Hesabat ayında verilişlərin növbəti 109 sayı efirə təqdim olunub. Naxçıvan radiosunun efiri mütəmadi olaraq izlənilib, radionun müxtəlif istiqamətlər üzrə monitorinqi aparılıb, proqram siyasəti və şəbəkəsi nəzarətdə saxlanılıb. Radio ay ərzində 487 saat efirdə olub. Ümumi efirin 45 faizi radionun öz istehsalı olan verilişlər olub. Ay ərzində 155 veriliş və canlı proqram, 359 konsert proqramı təqdim edilib.

Şura "Kanal 35" televiziyasının oktyabr ayındakı fəaliyyətini yaxından izləyib, təhsilyönümlü verilişlərlə yanaşı, vətənpərvərlik aşılayan proqramlar diqqətdə saxlanılıb. Televiziya muxtar respublikada təhsil yenilikləri, bu sahədə görülən işlər haqqında tamaşaçılara ətraflı məlumat verib, əsasən, uşaq və yeniyetmələrin diqqətini cəlb edən tədris proqramları efirə təqdim edilib. Muxtar respublikamıza həsr olunmuş telemateriallarin yayımı istiqamətində 23 film televiziyada yayımlanıb. "Naxçıvanın səsi" radiosunun efiri də izlənilib, təqdim edilən konsert proqramları və canlı verilişlərin təhlili aparılıb. Bəhs edilən dövrdə radio 472 saat efirdə olub, efir müddətinin 77 saatını canlı proqramlar təşkil edib.

Naxçıvan Dövlət Universitet Televiziyası oktyabr ayında fəaliyyətini bir qədər genişləndirib, efirə yayımlanıb, təhsilyönümlü verilişlərin sayı artırılıb. Belə ki, televiziyada yaradıcı işin keyfiyyəti nisbətən yüksəldilib, televiziya jurnalistikasına bələd yaradıcı əməkdaşlar efirə cəlb edilib. Bununla yanaşı, şura əməkdaşının televiziya ilə yaradıcı əlaqələrinin genişləndirilməsi qarşıya məqsəd qoyulub, oktyabr ayında bu istiqamətdə görüş keçirilib.

Hesabat dövründə şura tərəfindən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu ilə bağlı mərkəzi mətbuat orqanları üçün 73-ü mətbuat xidmətlərinin materialları olmaqla, 137 xəbər, 12 müsahibə, 3 analitik material, 6 video süjet verilib.

***Naxçıvan Muxtar Respublikası***
***Televiziya və Radio Şurası***

### İtmişdir

Babək rayonunun Hacıvar kənd sakini Hacıyev Rəşad Cəlal oğlunun adına 08.08.2018-ci ildə verilmiş A-018984 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü, 20.08.2018-ci il tarixli MH-0060507 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Camalov Sübhan Həsən oğlunun adına olan avtomobilin 74 BC-023 nömrəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 992